# Şəhid Hacıəli Qasımovun "Vətən uğrunda" medalı ailəsinə təqdim edilmişdir



**Lokal xarakterli antiterror tədbiri zamanı şəhid olmuş Qasımov Hacıəli Tahir oğlunun "Vətən uğrunda" medalı ailə üzvlərinə təqdim olunmuşdur.**

Tovuz Rayon İcra Hakimiyyətinin, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin əməkdaşlarının iştirak etdikləri təqdimetmə mərasimində RİH başçısının müavini Niftalı Qasımov diqqətə çatdırmışdır ki, lokal xarakterli antiterror tədbirində düşmənin tör-töküntüləri məhv edilərək ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunmuşdur: "Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq bu şanlı zəfər xalq-iqtidar birliyinin və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti sayəsində qazanılmışdır".

Qeyd edək ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu olan Hacıəli Qasımov 2023-cü il sentyabrın 20-də Xankəndi istiqamətində gedən döyüşlərdə ağır yaralanaraq 4 ay komada qalmışdır. Həkimlərin bütün səylərinə baxmayaraq, o, 2024-cü il yanvarın 28-də dünyasını dəyişmişdir.

Ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərdiyinə, öz xidməti vəzifəsini və hərbi hissənin qarşısında qoyduğu tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Hacıəli Qasımov "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", ölümündən sonra isə "Vətən uğrunda" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Azərbaycan.- 2024.- 12 sentyabr (№198).- S.10.